# AzXP-nin SK-nın 03№li İclasının  Protokolu

18.03.2026-cı il
İclasda iştirak etdilər: İ.Əliyeva, E.Quluzadə, H.Mustafayev, İ.Məmmədli
Qonaq qismində: AzXP-nin sədri Ə.Oruclu, Rəyasət Heyətinin üzvləri, X.Cəbrayılova, A.Əbilov, Millət vəkili Ə.Quliyev
Gündəlikdə olan məsələlər:
1.AzXP-nin ikinci çağırış növbiti seçkisinin tarixinin və vaxtının elan edilməsi.
2.AzXP-yə namizədlərin qeydiyyata götürülməsinin prosedur qaydaları.
3.Təşviqat və təbliğat kampaniyasının təşkili.
4. SK-ya daxil olan ərizə və şikayətlərin araşdırılması.
5. Sükut günlərinin təyini.
6. Seçki prosesinin izlənilməsi üçün beynəlxalq təşkilatlara dəvətnamələrin göndərilməsi.
İ.Əliyeva Nizamnamənin 5.2. bəndinin tələblərinə uyğun olaraq,seçkilərin vaxtının 07.04.2026-cı il tarixdən 07.06.2026-cı il tarixinədək, seçki tarixinin 01.06.2026-cı ildən 07.06.2026-cı ilədək təyin edilməsi təklifini irəli sürdü.
E.Quluzadə namizədlərin qeydiyyatı və təşviqatla əlaqədar təkliflər  verdi.
H.Mustafayev digər məsələlərlə bağlı təkliflər verdi.
Hörmətli qonaqlar müzakirələrə qatılaraq öz tövsiyyələrini verdilər.
Hər məsələ ayrılıqda səsə qoyuldu və aşağıdakı Qərarlar qəbul edildi:
Azərbaycan Xalq Parlamentinin Seçki Komissiyasının
Azərbaycan Xalq Parlamentinə ikinci çağırış seçkilərin təyin edilməsi, seçki kampaniyasının təşkili və seçkilərin keçirilməsi haqqında
Qərarı
Azərbaycan Xalq Parlamentinin Seçki Komissiyası Azərbaycan Xalq Parlamentinin Nizamnaməsinin 5.2. bəndinin tələblərini və seçki prosesinin şəffaf, demokratik və səmərəli təşkili zərurətini rəhbər tutaraq qərara alır:
1.Azərbaycan Xalq Parlamentinə ikinci çağırış seçkiləri, 07 aprel 2026-cı il tarixindən 07 iyun2026-cı il tarixinədək dövrü əhatə etməklə təyin edilsin.
2.Azərbaycan Xalq Parlamentinə ikinci çağırış seçkilərə namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi 07aprel 2026-cı il tarixindən başlanılsın. Namizədlərin qeydiyyatı Seçki Komissiyası tərəfindən təsdiq edilmiş bildiriş forması əsasında həyata keçirilsin. Namizədin qeydiyyatı bu barədə müraciət daxil olduqdan sonra 3(üç) gün müddətində qərar qəbul edilsin.
3.Azərbaycan Xalq Parlamentinə ikinci çağırış seçkiləri üçün seçkiqabağı təşviqat kampaniyası 10 aprel 2026-cı ildən başlanılsın və sükut günlərinin başlanmasına qədər davam etsin. Təşviqat fəaliyyəti bərabərlik, ədalətlilik və qanunauyğunluq prinsipləri əsasında həyata keçirilsin.
4.Azərbaycan Xalq Parlamentinə ikinci çağıtış seçkiləri ilə bağlı Seçki Komissiyasına daxil olan bütü ərizə və şikayətlərin operativ, obyektiv və qərəzsiz şəkildə araşdırılsın. Daxil olmuş müraciətlər üzrə qərarlar qanunvericiliyin və daxili prosedur qaydalarının tələblərinə uyğun qəbul edilsin.
5.Seçkiqabağı təşviqatın dayandırıldığı sükut günləri 30 və 31 may 2026-cı il tarixləri olaraq müəyyən edilsin.
6.Səsvermə həftəsi 01 iyun 2026-cı il tarixindən (Bakı vaxtı ilə saat 00.01-dən başlanmaqla) 07 iyun 2026-cı il tarixinədək (saat 23-00-a qədər) olmaqla müəyyən edilsin.

7.Azərbaycan Xalq Parlamentinə ikinci çağırış seçki prosesinin şəffaflığının təmin edilməsi məqsədi ilə beynəlxalq müşahidə və monitorinq həyata keçirən təşkilatlara rəsmi dəvətnamələr göndərilsin. Həmin təşkilatların seçki prosesini sərbəst və maneəsiz izləməsi üçün zəruri şərait yaradılsın.
8.Bu qərar qəbul edildiyi andan qüvvəyə minir və icrası Seçki Komissiyasına həvalə olunur.
Azərbaycan Xalq Parlamentinin Seçki Komissiyasının
Sədri: İ.Əliyeva
Katibi: H.Mustafayev